UOT: 332.1 **JEL**: R10; R19

Yunis Əvəz oğlu ƏVƏZOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: avazovy@gmail.com
https://doi.org/10.30546/4.71.731.03.2026.24

REGİONLARDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN GENİŞLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİNİN TƏNZİMLƏNMƏSİNİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətlərinin araşdırılması və ümumiləşdirilməsidir. Regionların sosial-iqtisadi inkişaf problemlərinin həllində sahibkarlığın rolu və əhəmiyyəti araşdırılmışdır. Sahibkarlıq fəaliyyətinin mövcud mexanizmlərinin tənzimlənməsinin və təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Bunlarla bağlı müvafiq təkliflər hazırlanmışdır.

Tədqiqatın metodologiyası baxımından analiz, sintez, statistik və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda, regionlarda sahibkarlıq fəaliyyətinin gücləndirilməsi mexanizmləri ilə bağlı araşdırmalara, elmi əsərlərə istinadlar olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən bunu deyə bilərik ki, müasir dövrdə ölkə regionlarında sahibkarlıq fəaliyyətinin genişləndirilməsində daha üstün mexanizmlərin hazırlanması və tətbiqində məqalədə verilmiş təkliflərdən istifadə olunması fayda verə bilər.

Tədqiqatın nəticələri baxımından məqalədə əks edilmiş nəticələrdən ölkənin regionlarında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələlərinin daha səmərəli təşkil edilməsi tədbirlərində istifadə etmək olar.

Tədqiqatın orijinallığı və elmi yeniliyi onunla izah edilir ki, müasir dövrdə ölkə regionlarında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi mexanizmlərinin tənzimlənməsinin daha üstün metodoloji xüsusiyyətləri müəyyənləşdirilmiş və üslubları verilmişdir. Regionların resurslarından səmərəli istifadə edilməsində sahibkarlığın rolunun artırılmasının vacibliyi əsaslanıdırılmışdır.

Açar sözlər: Azərbaycan, regionlar, sahibkarlıq, sahibkarlıq fəaliyyəti, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, metodoloji xüsusiyyətlər, metodoloji üslublar.

Giriş

Region iqtisadiyyatının inkişafında sahibkarlıq sektoru xüsusi rol oynayır. Regionlarda sahibkarlığın inkişafı regional iqtisadiyyatın inkişafı, istehlakçı və iqtisadiyyatın digər sahələrinin genişlənməsi üçün əlverişli şərait yaradır. Ölkə iqtisadiyyatının səmərəliliyinin artırılması regionlarda sahibkarlığın formalaşması və inkişafı problemlərinin həlli ilə ayrılmaz şəkildə bağlıdır. Sahibkarlıq regionların iqtisadi vəziyyətini gücləndirməyə, iş yerlərinin sayını, rəqabəti artırmağa, bazarı istehlakçılar arasında əhəmiyyətli tələbat olan mal və xidmətlərlə doldurmağa kömək edir. Regionlarda sahibkarlığın genişləndirilməsinin verdiyi faydalara əsaslanaraq, onun təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsinin böyük önəm daşıdığını deyə bilərik.

Qeyd edək ki, regionlarda sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi milli iqtisadiyyatın davamlı inkişafına töhfə verir. Regionlarda sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisad və maliyyə mexanizmlərinin tənzimlənməsi sahibkarlıq subyektlərinin və vətəndaşların mənafelərinə birbaşa təsir göstərir. Regionlarda sahibkarlıq inkişafı, onun təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimləmə sisteminin fəaliyyəti dövlət siyasətinin siyasi, hüquqi, iqtisadi, maliyyə, büdcə, investisiya, sosial və s. kimi sahələri ilə sıx bağlıdır. Azərbaycanın bütün iqtisadi regionlarında sahibkarlığın bərabər səviyyədə inkişafının ən önəmli şərti vətəndaşlar, sahibkarlıq subyektləri və dövlət arasında səmərəli qarşılıqlı əlaqəni təmin etmək qabiliyyətinə malik institusional mühitin və təşkilati-iqtisadi və maliyyə tənzimləmə mexanizmlərinin yaradılması və inkişafıdır [1, s.5].

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi mexanizmlərinin tənzimlənməsinin metodoloji xüsusiyyətlərinin tədqiqi

Müasir sahibkarlıq regionun iqtisadi inkişaf amili kimi qanunvericilik və icra hakimiyyəti strukturlarının idarəetmə və tənzimləmə funksiyalarının iqtisadiyyatda və cəmiyyətdə əvəzsiz olduğunu dərk edərək dövlətin daimi dəstəyinə ehtiyac duyur. Bu faktı onunla izah etmək olar ki, bu funksiyanın mahiyyəti ictimai istehsalın çoxşaxəli və mürəkkəb strukturunun bütün həlqələrində güc strukturlarının fəaliyyətinin davamlı təkmilləşdirilməsində, idarəetmə işinin iqtisadiyyatın səmərəliliyinin artırılmasının ümumi işinə əvəzsiz töhfəsində özünü göstərir [2]. Müasir iqtisadi şəraitdə regional rəhbərlik çevikliyi sayəsində daim dəyişən bazar şərtlərinə daha çox uyğunlaşan kiçik və orta sahibkarlığa (KOS) önəmli rol verir. Respublika rəhbərliyi əlverişli mühitin yaradılması üçün kompleks və sistemli tədbirlər reallaşdırmaqla regionlarda iri şirkətlərlə rəqabət apara bilən KOS-ların rəqabət potensialının artırılmasına yardım edir. Beləliklə, sahibkarlıq fəaliyyətinin ən geniş yayılmış formasını təmsil edən KOS, regionlarda bir sıra kəskin sosial problemləri həll etməyə qadirdir: yerli əhalinin xeyli hissəsinin aktiv iqtisadi fəaliyyətə cəlb edilməsi və nəticədə işsizlərin səviyyəsinin azaldılması; rəqabət mühitinin genişlənməsi və inhisarçılığın aradan qaldırılması; qıt məhsulların və xidmətlərin istehsalı və müvafiq açıq bazar boşluqlarının doldurulması üçün kiçik müəssisələrin fəaliyyətinin yenidən istiqamətləndirilməsi; kiçik mülkiyyətçilərin əhəmiyyətli təbəqəsinin formalaşması və bununla da cəmiyyətdə təkcə iqtisadi deyil, habelə sosial sabitliyin təminatı kimi orta təbəqənin yaradılmasına şəraitin təmin edilməsi.

Müasir sahibkarlıq sahibkarlıq fəaliyyətinin bütün aspektlərini özündə birləşdirən bir sıra fundamental prinsiplərə əsaslanır: ölkənin və onun təsis qurumlarının mövcud qanunvericiliyi ilə qadağan olunmayan fəaliyyət növlərinin sərbəst seçimi; fəaliyyət proqramının müstəqil formalaşdırılması; sahibkarlıq fəaliyyətinin aparılmasına könüllülük əsasında fiziki və hüquqi şəxslərin vəsaitlərinin və əmlakının cəlb edilməsi və s.

Regionlarda sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tətbiqi ilə müsbət dinamikaya nail olmaq üçün regionda əlverişli sahibkarlıq mühitinin yaradılması, onun təşkilati, informasiya və maliyyə təminatının səmərəli sisteminin formalaşdırılması əsas şərtdir ki, bunun üçün: sahibkarlığa səmərəli dəstək sistemi yaradılmalı; əhalinin və KOS-ların hüquqi və maliyyə savadlılığının artırılması məqsədilə sahibkarlıq məsələləri üzrə məsləhət xidmətlərinin göstərilməsi; sahibkarlıq fəaliyyəti sahəsində normativ-hüquqi bazanın və maliyyə-kredit siyasətinin təkmilləşdirilməsi; sahibkarlığın dəstəklənməsi və inkişafı proqramlarının reallaşdırılması; sahibkarlıq sahəsində regionlararası və beynəlxalq əlaqələrin qurulması; regionlarda sahibkarlığın formalaşması mərhələsində yeni başlayan sahibkarlara dəstək göstərilməsi; regional sahibkarlıq subyektlərinə qrantların verilməsi üçün proqramların reallaşdırılması; regionlarda sahibkarlıq sektorunda dövlət-özəl əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi.

Deməli, sahibkarlıq fəaliyyəti regionun iqtisadi inkişaf amili kimi qanunvericilik və icra hakimiyyəti strukturlarının idarəetmə və tənzimləmə funksiyalarının iqtisadiyyatda və cəmiyyətdə əvəzsiz olduğunu dərk edərək dövlətin daimi dəstəyinə ehtiyac duyur. Regionlarda sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi xüsusiyyətlərini müəyyənləşdirərkən yerinə yetirilməsi zəruri olan bir sıra vəzifələri qeyd etmək yerinə düşər: 1. Müasir dövlət tənzimlənməsi şəraitində sahibkarlığın genişləndirilməsinin əsas problemlərinin müəyyənləşdirilməsi; 2. Ölkənin ayrı-ayrı subyektlərində sahibkarlığın genişləndirilməsi proseslərinin dövlət tərəfindən idarə edilməsi üçün ümumi hüquqi və təşkilati şərtlərin müəyyənləşdirilməsi; 3. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsinin tənzimlənməsinin xüsusi vasitələri və üsullarının xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə ölkənin təsis qurumlarının normativ-hüquqi aktlarının təhlili. Sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi bu fəaliyyət sahəsinin xüsusiyyətlərinə görə mürəkkəb vəzifədir. Sahibkarlıq fəaliyyəti aktiv həyat mövqeyini, sahibkarlıq ideyalarının dərk edilməsinə və formalaşdırılmasına yönəlmiş müəyyən düşüncə tərzini və onların sonradan reallaşdırılmasını nəzərdə tutur. Sahibkarlıq fəaliyyəti müəyyən qanunlara tabedir, bunları nəzərə alsaq, dövlət sahibkarlığın

inkişafı üçün optimal şəraiti təmin edə bilər [6, s. 144].

Ümumiyyətlə, dövlət sahibkarlığın region iqtisadiyyatının inkişafında çox önəmli rol oynadığını nəzərə alaraq birbaşa nəzarətə şərait yaradır. Dövlət tənzimlənməsinin təcrübi olaraq reallaşdırılması hakimiyyətin demək olar bütün qollarının iştirakı ilə təmin edilir. Sahibkarlar çox vaxt biznes mühitinin tənzimlənməsində dövlətin iştirakından faydalanır, çünki dövlət sahibkarlıq fəaliyyətinin sabitləşməsi və inkişafına bərabər şərait yaradır, lakin sahibkar dövlətə münasibətdə ədalətli davrandığı təqdirdə fayda əldə edilər. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin məqsədi sahibkarlıq fəaliyyəti göstərilməsi üçün əlverişli şərait yaratmaqla iqtisadi inkişafa nail olmaqdır. Regionlarda sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi qarşıya aşağıdakı vəzifələri qoyur: sahibkarların hüquqlarının müdafiəsi; kiçik biznesin inkişafı və dəstəklənməsi; azad rəqabətə dəstəyin göstərilməsi; əhali məşğulluğunun təmin edilməsi; vətəndaşların həyat və sağlamlığının qorunması; iqtisadi böhranlara dayanıqlılıq nümayiş etdirilməsi; ətraf mühitin mühafizəsi və s. [11, s.136]. Regionlarda sahibkarlığın genişləndirilməsində təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin yaxşılaşdırılması tənzimlənmə formalarına əsaslanır. Sahibkarlığın tənzimləmə formaları dedikdə, hüquqi normalarda təsbit olunmuş və qanunvericilik çərçivəsində reallaşdırılan sahibkarlıq fəaliyyətinə təşkilati, hüquqi və iqtisadi təsirin konkret tədbirləri başa düşülür. Beləliklə, tənzimləmənin formaları müxtəlifdir və hüquqi, iqtisadi və təşkilati olaraq bölünür [10, s. 247].

Bazar iqtisadiyyatı şəraitində regionlarda sahibkarlığın genişləndirilməsində təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsində iqtisadi formalar aparıcı yer tutur. İqtisadi formaları bütövlükdə iqtisadiyyatın və ya müxtəlif sahələrin və iqtisadi fəaliyyət növlərinin inkişaf strategiyasını və istiqamətlərini müəyyənləşdirən tədbirlər kimi xarakterizə etmək olar ki, bunlara vergi, gömrük və valyuta tənzimlənməsi daxildir. Sosial-iqtisadi inkişafın proqramlaşdırılması və proqnozlaşdırılması regionlarda sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsinin formalarından biridir. Regionlarda sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsinin yuxarıda göstərilən formalarının əsas məqsədi iqtisadi təsir tədbirlərinin tətbiqindən ibarətdir. Ancaq heç bir inkişaf etmiş bazar iqtisadiyyatı təşkilati formalar olmadan edə bilməz.

İdarəetmənin təşkilati forması bütövlükdə iqtisadiyyata münasibətdə qanunvericilik çərçivəsində və səlahiyyətli dövlət orqanları tərəfindən tətbiq edilən idarəetmə tədbirlərini ifadə edir (məsələn, lisenziyalaşdırma, sahibkarlıq subyektlərinin qeydiyyatı). Sahibkarlıq subyektlərinin qanunvericiliyə əməl olunması sahəsində dövlət nəzarəti dövlət tənzimlənməsinin təşkilati formalarından biridir. Sahibkarlıq subyektlərinin müdafiəsi həmin subyektlərin mübahisəli və ya pozulmuş hüquqlarının tanınması və ya bərpası baxımından müəyyən tədbirlərdən ibarətdir. Qanunlar və qanunvericilik aktları sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin hüquqi formalarının əsası kimi çıxış edir. Müvafiq normativ-hüquqi aktlarda tənzimləmənin müxtəlif formaları öz əksini tapır, məsələn, Azərbaycanda “Texniki tənzimləmə haqqında” Qanun texniki tənzimləməni, həmçinin əmlak məsuliyyəti, müqavilə kimi hüquqi tədbirləri nəzərdə tutur [3].

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi mexanizmlərinin tənzimlənməsi istiqamətləri

Regionlarda sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi üsul və formaları arasındakı əlaqəni nəzərdən keçirərkən, əksər formalar sahibkarlıq fəaliyyəti elementlərinin birləşməsində əks olunur. Bu üsullardan sahibkarlıq fəaliyyətinin tənzimlənməsi forması olan antiinhisar tənzimlənməsinin reallaşdırılmasında istifadə olunur. Antiinhisar orqanı yerli özünüidarəetmə və icra hakimiyyəti orqanlarına rəqabətin inkişafına dair tövsiyələr göndərmək, kapitalın təmərküzləşməsinə yönəlmiş müəyyən hərəkətlərin reallaşdırılmasına ilkin razılıq vermək kimi funksiyaları yerinə yetirir.

Tənzimlənmə formalarına hüquq normalarının qoyulması və istifadəsi, habelə qanuni təşkilati hərəkətlərin reallaşdırılması, o cümlədən bu prosesin bir növü olan dövlət nəzarəti də daxildir. Dövlətin məcburiyyət tədbirlərinin istifadəsi regionlarda sahibkarlıq fəaliyyətinin inkişafının

planlaşdırılması, tənzimlənməsi və nəzarətinin müstəqil forması kimi müəyyənləşdirilə bilər.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və dəstəklənməsi zamanı sahibkarlıq hüququnun üç əsas prinsipini ayırd etmək olar, bunlar: sahibkarlıq fəaliyyətinin azadlığı, ədalətli rəqabət və qanunvericiliyin qanuniliyi. Sahibkarlıq fəaliyyətinin azadlığı prinsipinə əsasən hər kəsin qanunla qadağan olunmayan sahibkarlıq və digər iqtisadi fəaliyyətlər üçün öz qabiliyyətlərindən və əmlakından sərbəst istifadə etmək hüququ var. Rəqabətin qorunması və ədalətsiz rəqabətə yönəlmiş iqtisadi fəaliyyətin qarşısının alınması prinsipi rəqabətə və iqtisadi fəaliyyət azadlığına dəstək təmin edir. Qanunilik prinsipi sahibkarlıq fəaliyyətinin yalnız qanuna ciddi riayət olunmaqla reallaşdırılmalı olduğunu nəzərdə tutur.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi üsullarından istifadə sahibkarların qanuni davranışını təmin etmək məqsədilə hüquqi münasibətlər iştirakçılarına təsir göstərməkdən ibarətdir. Sahibkarlığın tənzimlənməsi vasitələri birbaşa və dolayı olmaqla iki yerə bölünür. Birbaşa olanlara daxildir: subvensiyalar, subsidiyalar, güzəştlər. Dövlətin sahibkarlıq subyektlərinə dolayı təsir üsullarına daxildir: pul siyasəti, vergi siyasəti, amortizasiya siyasəti.

Sahibkarlığın tənzimlənməsinin inzibati üsulları ilə iqtisadi üsullar bir-biri ilə sıx bağlıdır. Məsələn, sahibkarlıq fəaliyyətinin vergi tənzimlənməsindən danışırıqsa, bu mexanizm ilk öncə, ölkənin Vergi Məcəlləsinin normalarına əsaslanır. Sahibkarlığın tənzimlənməsində və inkişafında maliyyələşdirmə önəmli rol oynayır. Dövlət büdcə vəsaitlərinin bölüşdürülməsi yolu ilə sahibkarların məhdud kapitalı ilə bağlı problemləri həll edir: ümumən sahibkarlığın və xüsusilə ayrı-ayrı sahələrdə sahibkarlığın dəstəklənməsi üzrə dövlət proqramları çərçivəsində; müəyyən sənaye sahələrinə subsidiya verməklə; sahibkarlara büdcədən və büdcədənkənar fondlardan kreditlər verməklə.

Regionlarda sahibkarlığın genişləndirilməsi müəyyən maliyyələşdirmə prinsiplərinə əsaslanır. Müasir şəraitdə regionlarda sahibkarlığın genişləndirilməsinin maliyyələşdirilməsinin prinsipləri müəyyənləşdirilə və sistemləşdirilə bilər ki, bunlara özünümaliyyələşdirmə, məqsədyönlülük, güzəştli kreditləşmə, maliyyə resurslarından səmərəli istifadə, planlaşdırma və iqtisadi məsuliyyət, risk səviyyəsinin nəzərə alınması, hüquqi məsuliyyət, uyğunluq, idarəetmə qərarlarının əsaslılığı, ardıcıllıq, KOS-un prioritetlərinin nəzərə alınması, sosial məsuliyyətin dövlət təminatı daxildir [7, s.115].

Özünümaliyyələşdirmə prinsipi istehsal xərclərinin tam ödənilməsini ifadə edir və məhsul satışı nəticəsində toplanmış öz vəsaiti və lazım gəldikdə bank kreditləri hesabına istehsalın inkişafına sərmayə qoymağı nəzərdə tutur. Hazırda sahibkarlıq subyektləri heç də hamısı özünümaliyyələşdirmə prinsipi tam şəkildə fəaliyyətlərini reallaşdıra bilmir. Sahibkarlıq subyektlərinin vəsaitlərinin ümumi həcmi ciddi investisiya proqramlarının reallaşdırılması üçün yetərli olmadığından güzəştli bank kreditlərindən istifadə olunur ki, bu da güzəştli kreditləşdirmə prinsipinə əsaslanır.

Məqsədyönlülülk prinsipi büdcə vəsaitlərindən məqsədyönlü istifadə tələbini səciyyələndirir. Sahibkarlığın maliyyələşdirilməsi, ümumiyyətlə, məqsədyönlü olmalı və bir qayda olaraq, dövlət vəsaitləri xüsusi planlaşdırılmış fəaliyyətlərə yönəldilməlidir. Maliyyə resurslarından səmərəli istifadə prinsipi az miqdarda resurslardan və ya büdcədə nəzərdə tutulmuş vəsaitdən istifadə etməklə ən yaxşı nəticənin əldə olunmasını təmin etməkdir. Büdcədən maliyyələşmə nəzərə alınmaqla sahibkarlıq fəaliyyətinin əsas nəticəsi regionların və bütövlükdə ölkənin sosial-iqtisadi səviyyəsinin yüksəldilməsi olmalıdır. Ona görə regionlarda sahibkarlıq fəaliyyəti gələcəkdə ən az xərclə ən böyük effekti verməlidir.

Hüquqi məsuliyyət prinsipi sahibkarlığın mülki, vergi və büdcə qanunvericiliyinə əməl etməsini nəzərdə tutur. Riskin səviyyəsinin nəzərə alınması prinsipi riskin miqyasına təsir edən amillərin təhlilini, konkret hadisənin başvermə riskinin qiymətləndirilməsini, maliyyələşdirmənin konkret formalarını, habelə riskin azaldılması üzrə tədbirlərin hazırlanmasını nəzərdə tutur. Regionların iqtisadi inkişaf dinamikası ilə regional maliyyə sisteminin inkişaf səviyyəsi arasında uyğunluq prinsipi iqtisadi dinamikanın keyfiyyəti ilə maliyyə sisteminin inkişaf səviyyəsi arasında tarazlığın təmin edilməsini zərurətə çevririr, çünki balanssız artımın yaranması struktur problem-

lərin artmasına səbəb olur.

Məhz regional maliyyə sisteminin vəziyyəti və inkişaf səviyyəsi mezoiqtisadiyyatın artım tempini və onun davamlılığını müəyyənləşdirir. Regionların iqtisadi və maliyyə siyasətinin istiqamətlərinin müəyyənləşdirilməsində əsas rol oynamalı olan maliyyə inkişafı modelinin formalaşmasında idarəetmə qərarlarının əsaslılıq prinsipidir [5]. Yalnız regional maliyyə potensialı, təsərrüfat kompleksinin xüsusiyyətləri və resurs bazası nəzərə alınmaqla hazırlanmış əsaslandırılmış regional siyasət regionların tarazlı və ahəngdar inkişaf etməsinə, onların maraqlarını və əhalinin rifahını təmin etməyə imkan verəcəkdir. Ardıcıllıq prinsipi regional təkrar istehsal prosesinin maliyyə komponentləri arasında proporsiyaların müəyyənləşdirilməsi, regional maliyyə sisteminin elementlərinin onların qarşılıqlı əlaqəsi və asılılığında nəzərə alınması zərurətindən ibarətdir.

Regionlarda sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi və dəstəklənməsi vəzifələri təkcə birbaşa dövlət orqanları tərəfindən həll edilmir. Baxılan sistemin səmərəliliyini artırmaq üçün sahibkarlığın inkişafı və dəstəklənməsi üzrə çoxsaylı qurumlar, assosiasiyalar və fondlar yaradılmalıdır. Belə qurumlar ticarət və sənaye palataları, biznes inkubatorlar, texnoparklar, innovasiya və texniki mərkəzlər və s. ola bilər. Sadalanan sahibkarlığı dəstəkləyən və inkişaf etdirən subyektlər, bir qayda olaraq, informasiya dəstəyi göstərir, sahibkarlarla dövlət arasında qarşılıqlı əlaqələrin səmərəliliyini artırır [8, s.148].

Sahibkarlıq regionda bazar islahatlarının sürətləndirilməsinin, eləcə də insanlar üçün layiqli həyat şəraitinin yaradılmasının açarıdır. Amma bütün bunlar dövlətin dəstəyi olmadan reallaşdırıla bilməz. Regionun iqtisadi rifahının təmin edilməsində sahibkarlığın rolu çox yüksəkdir, lakin onların inkişafı üçün səmərəli dövlət dəstəyi lazımdır. Regionlarda sahibkarlığın genişləndirilməsinin təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi və dəstəklənməsi sisteminin məqsəd və vəzifələrinin reallaşdırılması səmərəli milli iqtisadi sistemin fəaliyyət göstərməsi üçün əvəzsiz şərtdir.

Sahibkarlığa dövlət dəstəyi təkcə dövlətlə sahibkarlar arasında münasibətləri deyil, habelə sahibkarların özləri arasında normal münasibətlərin qurulmasını səciyyələndirir. Buna görə regionlarda sahibkarlıq fəaliyyətini genişləndirmək məqsədilə təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin tənzimlənməsi dövlət tənzimləyici vasitələrinin köməyi ilə reallaşdırılır ki, bu da onların inkişafının proqnozlaşdırılmasını, antiinhisar tədbirlərinin görülməsini, investisiyalar və kapital qoyuluşları üçün əlverişli şəraitin yaradılmasını, ETT-nin nailiyyətlərindən və normal inkişafdan istifadə etməyi nəzərdə tutur [9, s.37].

Aydındır ki, Azərbaycanın regionlarında sahibkarlığın inkişafında bununla bağlı qəbul edilmiş dövlət proqramları önəmli rol oynamış, KOS-un inkişafı ilə bağlı dövlət tədbirləri dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birinə çevirmişdir. Sahibkarlara həmin dövlət proqramları əsasında dövlət maliyyə yardımı sistemi formalaşdırılıb, sahibkarlığın və ümumilikdə iqtisadiyyatın tənzimlənməsi sahəsində önəmli tədbirlər reallaşdırılıb. Sahibkarlığın inkişafı ilə bağlı atılan addımlar sırasında infrastrukturun, sahibkarlara lazımi texniki yardım informasiya, konsaltinq və s. xidmətlər göstərən strukturların formalaşdırılmasını, vergi yükünün azaldılması üzrə dövlət səviyyəsində reallaşdırılan tədbirləri də göstərmək olar [2, s.161]. Bu gün sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üzrə regional proqramların əsas istiqaməti sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün infrastrukturun hərtərəfli inkişafına yönəlib. Bu, regionlarda ixtisaslaşmış infrastrukturun yaradılmasında özünü göstərir. Regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi üçün müxtəlif infrastruktur elementlərindən istifadə olunmalıdır ki, bunlara regional biznesə dəstək fondları və inkişaf agentlikləri, texnoparklar, biznes inkubatorlar, konsaltinq mərkəzləri, zəmanət, investisiya fondları və digər müxtəlif fondlar daxildir.

Nəticə

Beləliklə, regionlarda sahibkarlıq fəaliyyətini genişləndirmək məqsədilə təşkilati-iqtisadi və maliyyə mexanizmlərinin səmərəli tətbiqi zəruri şərtdir ki, bunun üçün dövlət dəstəyinə ehtiyac var:

1. Biznesin inkişafı üçün əlverişli hüquqi normaların yaradılması;
2. Sahibkarlıqla bağlı vergi güzəştləşrinin tətbiqi;
3. Təhsili maliyyələşdirməklə daha ixtisaslı kadrlar yetişdirilməsi;
4. Rəqabəti inkişaf etdirmək üçün tender sistemindən istifadə etməklə dövlət sifarişlərinin yerinə yetirilməsi;
5. Sahibkarlıq sferasında uğura görə mükafatlar şəklində stimulun tətbiqi.

Bunlarla bərabər, regional sahibkarlıq strukturlarında iqtisadi münasibətlərin səmərəli təşkilini təmin etmək üçün müvafiq şərait yaradılmalıdır. Bunlara daxildir:

- ✓ mütərəqqi tənzimləmə bazası;
- ✓ fəaliyyətlərin qiymətləndirilməsi və maddi stimullaşdırılması üçün rasional sistem;
- ✓ maddi aktivlərin, xərclərin və məhsulların hərəkətinin uçotu sistemi;
- ✓ inventar axınının idarə edilməsi üçün infrastruktur;
- ✓ logistika sxemlərinin yaradılması.

Regionlarda sahibkarlıq subyektləri üçün maliyyə resurslarının əlçatanlığının artırılması onların inkişafına kömək edə bilər.

Beləliklə, dövlət qurumları sahibkarlıq üçün faiz dərəcələrinin ölçüsünə daha sərt nəzarət funksiyalarını öz üzərinə götürməlidir. Bundan əlavə, kredit təşkilatlarının xərclərini azaltmaqla sahibkarlara verilən bank kreditlərinin faiz dərəcələrini aşağı salmaq olar.

İnvestisiya layihələrinin səmərəli idarə edilməsi üçün müəssisənin məqsədləri və onlara nail olmaq vasitələri, əvvəlki dövrlərin nəticələri və mövcud vəziyyəti nəzərə almaq lazımdır:

- Regionlarda sahibkarlığın genişləndirilməsi üçün optimal şəraitin yaradılmasında mühüm cəhət əhalinin müxtəlif təbəqələrinin və qruplarının sahibkarlıq fəaliyyətinə müsbət münasibətinin formalaşdırılmasıdır;
- Regional sahibkarlığın səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması iqtisadiyyatın bu sektorundan büdcə daxilolmalarını artıracaq, həmçinin əmək bazarını sabitləşdirəcək və regionlarda yerli istehsal olunan məhsulların çeşidini genişləndirəcək və s.

ƏDƏBİYYAT

1. Əhədov, V.P. Azərbaycan Respublikasında sahibkarlığın inkişafında institusional tənzimlənmənin təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2024, 40 s.
2. Tağıyev, V.Q. Sahibkarlıq fəaliyyətinin inkişafında dövlət siyasəti istiqamətləri. Audit 2020, 4 (30), s. 156-167.
3. “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 30 sentyabr 2019.
4. Алиев Ш.Т. Моделирование инноватизации национальной экономики в современных условиях // Научное обозрение, 2014 , № 06, С. 342-346.
5. Алиев Ш.Т. Проблемы конкурентоспособности реального сектора экономики Азербайджана в условиях глобализации// Журнал «Доклады» НАНА. – 2008. – № 6. – С. 135–143.
6. Игнатова, И.В. Развитие предпринимательства в регионе: факторы и проблемы / И.В. Игна това, Е.С. Игнатов // Экономические и социальные перемены: факты, тенденции, прогноз. – 2017. – Т. 10. – № 5. – С. 143-157.
7. Исаев, М. А. Основные принципы финансирования малого и среднего бизнеса / М.А. Исаев // Известия ВУЗов Кыргызстана. – 2022. – № 5. – С. 113-116.
8. Козырев, О.С. Механизмы государственного регулирования предпринимательской деятельности / О.С. Козырев // Актуальные вопросы права, экономики и управления: сборник статей IV Международной научно-практической конференции, Пенза, 12 октября 2016. – С. 147-149.

9. Мамедов, Э.С. Основные направления поддержки малого и среднего предпринимательства государством в Стратегической дорожной карте / Э.С. Мамедов // Вектор науки Тольяттинского государственного университета. Серия: Экономика и управление. – 2019. – № 2(37). – С. 36-42.
10. Мухамедова, А.И. Формы и методы государственного регулирования предпринимательской деятельности / А. И. Мухамедова // Трибуна ученого. – 2021. – № 5. – С. 245-249.
11. Тимофеева, Т.Ф. Государственное регулирование предпринимательской деятельности / Т.Ф. Тимофеева, Л. Г. Зиновьева // Вестник Российского университета кооперации. – 2016. – № 2(24). – С. 134-137.

Юнис Аваз оглы Авазов
Докторант Азербайджанского Университета Кооперации,
E-mail: avazovy@gmail.com

Методологические особенности механизмов регулирования расширения предпринимательской деятельности в регионах

Резюме

Цель исследования – изучение и обобщение методологических особенностей регулирования механизмов расширения предпринимательской деятельности в регионах. Исследована роль и значение предпринимательства в решении проблем социально-экономического развития регионов. Обоснована важность регулирования и совершенствования существующих механизмов предпринимательской деятельности. Разработаны соответствующие предложения по этому вопросу.

Методология исследования – в части анализа, синтеза, статистических и обобщающих методов. Одновременно приведены ссылки на исследования и научные работы, посвященные механизмам укрепления предпринимательской деятельности в регионах.

С точки зрения прикладной значимости исследования – можно сказать, что использование предложенных в статье методов может быть полезным при разработке и внедрении более эффективных механизмов расширения предпринимательской деятельности в регионах страны в современную эпоху.

С точки зрения результатов исследования – результаты, отраженные в статье, могут быть использованы в мерах по более эффективной организации вопросов регулирования предпринимательской деятельности в регионах страны.

Оригинальность и научная новизна исследования – объясняется тем, что были выявлены и предложены лучшие методологические особенности механизмов регулирования предпринимательской деятельности в регионах страны в современную эпоху. Обоснована важность повышения роли предпринимательства в эффективном использовании региональных ресурсов.

Ключевые слова: Азербайджан, регионы, предпринимательство, предпринимательская деятельность, регулирование предпринимательской деятельности, методологические особенности, методологические стили.

Yunis Avaz Avazov
Doctoral student of Azerbaijan Cooperation University,
E-mail: avazovy@gmail.com

Methodological features of regulating mechanisms for expanding entrepreneurial activity in the regions

Summary

The purpose of the study is to investigate and generalize the methodological features of the regulation of mechanisms for expanding entrepreneurial activity in the regions. The role and importance of entrepreneurship in solving the problems of socio-economic development of the regions have been investigated. The importance of regulating and improving the existing mechanisms of entrepreneurial activity has been substantiated. Relevant proposals have been developed in this regard.

Methodology of the study – in terms of analysis, synthesis, statistical and generalization methods have been used. At the same time, references have been made to research and scientific works related to the mechanisms for strengthening entrepreneurial activity in the regions.

From the point of view of the applied significance of the study – we can say that the use of the proposals given in the article may be beneficial in the development and implementation of better mechanisms for expanding entrepreneurial activity in the regions of the country in modern times.

From the point of view of the results of the study – the results reflected in the article can be used in measures for more efficient organization of issues of regulating entrepreneurial activity in the regions of the country.

The originality and scientific novelty of the study – is explained by the fact that better methodological features of regulating mechanisms for expanding entrepreneurial activity in the regions of the country in modern times have been identified and styles have been given. The importance of increasing the role of entrepreneurship in the efficient use of regional resources has been substantiated.

Key words: Azerbaijan, regions, entrepreneurship, entrepreneurial activity, regulation of entrepreneurial activity, methodological features, methodological styles.